# A(H1N1) QRİPİNƏ QARŞI VAKSİNASİYA
# HAMİLƏ QADINLAR ÜÇÜN MƏLUMAT



Yəqin ki, yeni A(H1N1) adlanan qrip virusu haqqında eşitmişsiniz. Bu virus bütün dünyaya yayılmışdır və əksər insanların A(H1N1) virusuna qarşı immuniteti yoxdur. Mütəxəssislər xəbərdar edirlər ki, yeni A(H1N1) qripi hamilə qadınlar üçün təhlükəli ola bilər. Ona görə də hamilə qadınların peyvənd olunması məsləhət görülür.

## Qrip haqqında məlumat

**Xəstəliyin əlamətləri:** *yüksək hərarət, əzələ və oynaq ağrıları, təngnəfəslik və hava çatışmazlığı, halsızlıq, öskürək, boğaz ağrısı və zökəm, baş ağrısı, bəzən qusma və ishal.*

## Qorunma yolları



Əllərinizi tez-tez sabunla yuyun.



Məlumatla ailə üzvləri, dostlar və işçilər arasında bölüşün.



Xəstə olduğunuz təqdirdə evdə qalın, mümkün qədər çox istirahət edin, insanların kütləvi toplandığı yerlərdən uzaq olun, səyahət etməkdən çəkinin.



Öskürmə və asqırma zamanı ağız və burun nahiyələrinizi örtün. Maskadan və tənzifdən istifadə edin.

## Peyvənd nə üçün indi lazımdır?

• A(H1N1) pandemiyası ötən il başlamışdır və çoxsaylı xəstələnmə halları barədə məlumatlar verilmişdir. Amma mütəxəssislər proqnozlaşdırırlar ki, bu ilin sonunadək və yaxud gələn il qripin ikinci, daha güclü dalğası baş verə bilər.

• 2010-cu ilin fevral ayına olan məlumata əsasən dünyanın 50-dən çox ölkəsində 350 milyondan çox insan artıq peyvənd edilib. Avropanın 36 ölkəsində pandemik qripə qarşı 51 milyona yaxın insan, o cümlədən 296 min hamilə qadın peyvənd olunub.

## Peyvənd təhlükəsizdirmi?

A(H1N1) qripinə qarşı peyvənd təhlükəsizlik baxımından mövsümi qrip peyvəndləri ilə eynidir. Bu günə qədər A(H1N1) qripinə qarşı peyvəndlərin hamiləliyə, döl və uşaqlara heç bir mənfi təsiri aşkar edilməmişdir.

## Qeyd

*Bəzi hallarda çox zəif olan yan təsirlər mümkün ola bilər (hərarət, baş ağrısı, əzələ ağrıları). Əlamətlər 1-2 gün davam edə bilər. Çox nadir hallarda allergiya halları müşahidə oluna bilər.*

*Aşağıda qeyd olunan şəxslər peyvənddən çəkinməlidirlər:*

- *Peyvəndin müxtəlif komponentlərinə qarşı yüksək həssaslığı olan şəxslər (yumurta və toyuq məhsullarına yüksək həssaslıq).*
- *Adi qripə qarşı peyvəndə və başqa peyvəndlərə allergiyası olanlar, xroniki xəstəliyin fəsadlaşması və ya xəstəliyin kəskin dövründə olan şəxslər (müalicədən sonra peyvənd oluna bilərlər).*


**Tərtib edən təşkilat**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
İctimai Səhiyyə və İslahatlar Mərkəzi

**Dəstək verən təşkilatlar**

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID)
Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC)
Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu (UNFPA)
Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR)
Rastropoviç-Vişnevskaya Fondu (RVF)
Səhiyyə Nazirliyinin Səhiyyə Sektorunda İslahatlar Layihəsi
Ümumdünya Səhiyyə Təşkilatı (WHO)
BMT-nin Uşaq Fondu (UNICEF)